# MİLLİ POEZİYAMIZIN MƏDİNƏ GÜLGÜN ZİRVƏSİ



Milli mətbuatımızı bəşəri nümunələrlə zənginləşməsinə şairələrimiz də zaman-zaman tövhələrini veriblər. Lakin zirvələrlə bir sırada dayanmaq xoşbəxtliyi heç də hər kəsin tale qismətinə nəsib olmayıb. 1926-cı il yanvarın 17-də Bakıda dünyaya göz açan, mənalı və nəsillərə örnək ömür yolu keçən, o taylı-bu taylı ədəbiyyatımızın fəxrlərindən sayılan, 30 ildən bəri paytaxtımızın fəxri xiyabandakı məzarı ziyarət edilən Mədinə Nəsrulla qızı Ələkbərzadə (Mədinə Gülgün) də barmaqla sayılacaq qədər belə xoşbəxt sənətkarlarımızdandır.

Görkəmli şairə, mübariz insan, həyatının sonunadək Azərbaycan Demokrat Firqəsinin amallarına sadiq qalan, ən başlıcası ömür-gün yoldaşı, milli poeziyamızın zirvələrindən sayılan xalq şairi Balaş Azəroğlunun İlham mənbələrindən olan Mədinə xanım yaddaşlarda belə duyğularla qalmaqdadır.

Sənətkarın şeirləri 1945-46-cı illərin 21 Azər hərakatının beşiyi sayılan Təbrizdə necə maraqla qarşılanırdısa Vətənin mühacirət adında ünvanında bir elə rəğbətlə dinlənilir, mütaliə edilirdi.

Məsləkdaşımızn şeirlərini söz sənəti sahiblərinin poetik nümunələrindən fərqləndirən başlıca cəhət həmin misraların daxilindəki bir lirika idi ki, bunların əksəriyyətinə mahnı bəstələmək o qədər də çətin iş sayılmırdı. Müğənnilərin isə məlahətli, həzin səsləri həmin təranələrə papulyarlıq qazandırırdı. Şairənin əməkdar incəsənət xadimi adına layiq görülməsi də belə vəhdətə məntiqi yanaşmanın nəticəsi sayıla bilərdi.

Yanvarın 18-də Azərbaycanın elə bir mətbu onlayn orqanı yoxdur ki, sevimli şairəmizin 95 illik yubileyini manşetə çıxartmasın, hər iki sahədəki xidmətlərini diqqətə çatdırmasın, şeirlərindən nümunələri yayımlamasın. Bu özü ümumxalq məhəbbətin ifadəsidir, yaddaşların inikasıdır. Azərbaycan Demokrat Firqəsi oğlu, məsləkdaşımız Etibar Balaş oğlu (Balaş Azəroğlu) Abizadə və yubilyarın bütün doğmaları, yaxınları ilə xoş duyğularını bölüşərkən qətiyyətlə bildirir ki, Mədinə Gülgünün də daşıyıcısı olduğu bəşəri ideyaların təntənəsi qaçılmazdır.

Azərbaycan Demokrat Firqəsi

P.S: Fəxrimiz, ölməz sənətkarımız Mədinə xanımın bioqrafiyasından, yaradıcılıq yolundan bəhs edən yazı, şeirləri (dalidag.az), "AN.T"dən götürülən səsli görüntüləri isə bir daha yaddaşlarımızda poeziyamızın zirvələrindən olan unudulmaz insanı canlandıra bilər.

Mədinə Gülgün: "Fikrimə yaddaşlar yazan yarpaqlar, fikrimi ardınca aparır yenə..."

Azərbaycan ədəbiyyatının görkəmli qadın şairələrindən olan, Cənub mövzusunda unudulmaz poeziya nümunələri yaradan, Əməkdar incəsənət xadimi Mədinə Gülgün hər şeyə, məhrumiyyətlərə, çətinliklərə, sıxıntılara baxmayaraq, şair qəlbini, səmimiyyətini, insanlara sevgisini qoruyub saxlaya bilib. “Yer üzündə bir evim var, ocağı daim yanar. Onun sönməz şöləsindən, ürəyim işıqlanar”, - deyən şair ailəsini, balalarını, ocağını hifz eləməklə yanaşı, gözəl sənət nümunələri də yarada bilmişdi.

Sonradan Gülgün kimi şöhrət tapmış Mədinə Ələkbərzadənin ilk qələm sınaqları 40-cı illərin əvvəllərindən qəzet və jurnal səhifələrində görünməyə başlayıb. Mədinə Gülgün şeirlərini 1945-ci ildə Təbrizdə “Vətən yolunda”, “Azərbaycan” qəzetlərində çap etdirib. Mədinə Gülgünün “Təbrizin baharı” adlı ilk şeir kitabı 1950-ci ildə işıq üzü görüb. Bu kitabda 1945-49-cu illər ərzində yazdığı şeirlər toplanıb.

Tanınmış şairənin ilk yaradıcılıq nümunələri Azərbaycan xalqının azadlıq və milli istiqlaliyyət uğrunda apardığı mübarizə illərinə təsadüf edib. Mədinə Gülgünün poeziyası xalqa, doğma vətənə övlad məhəbbətində yoğurulub, oxucularını ağ günlərə və qurtuluş uğrunda döyüşlərə çağırış ruhunda köklənib.

Şairənin əsərləri hələ sağlığında bir sıra xarici dillərə tərcümə olunub. Dünya xalqlarının azadlıq və istiqlaliyyət uğrunda mübarizəsini bir humanist şair kimi daim izləyən, kəsərli sözləri ilə onların səsinə səs verən şairin Bakıda və Moskvada "Təbrizin baharı", "Savalanın ətəklərində", "Sülhün səsi", "Yadigar üzük", "Təbriz qızı", "Firudin", "Dünyamızın sabahı", "Durnalar qayıdanda", "Dünya şirin dünyadır", "Çinar olaydı", "Arzu bir ömürdür", "Yora bilməz yollar məni", "Könlümü ümidlər yaşadır" və onlarca digər şeir kitabları dərc olunub. Onun lirik şeirlərinə mahnılar bəstələnib.

"Şeirdi həyatda sərvətim mənim" deyən şairənin yazdığı bu kitabların başlıca mövzusu insan taleyi, azadlıq hissi, Təbriz həsrəti, övladlarını qəlbdən sevən bir ana qəlbinin arzu və istəkləridir.

Qəlbi Cənub həsrəti ilə döyünən Xalq şairi Balaş Azəroğlu ilə ailə həyatı quran Mədinə Gülgün bir şair ömrünü mənsub olduğu xalqa şərəflə, vicdanla xidmətdə keçirib.

Yaşının ağbirçək çağlarında Vətən dərdli şairənin yaralı kövrək ürəyinə daha bir ağır yara dəydi. 1990-cı il 20 Yanvar faciəsi onun poeziyasına qəmli, kədərli sətirlərlə hopdu. Şəhidlərə də ürəkdən ağladı, "Bu şəhid balaların ölən vaxtı deyildi!..." deyərək onların dərdini də öz dərdinə qatdı, qan-yaş tökdü, fəğan qopardı.

Mədinə Gülgün 1991-ci il fevralın 17-də Bakıda vəfat edib, Fəxri xiyabanda dəfn olunub.

Nə qədər ömrüm var sönməyəcəkdi,

Yaşamaq, yaratmaq həvəsim mənim!,- deyən şairin məğrur, bir az da nisgilli poeziyası heç zaman öz dəyərini itirməyəcək.[1]

[1] https://reyting.az/medeniyyet/49760-milli-poeziyamzn-mdin-gulgun-zirvsi.html